

Zakir Bağır

# Yadigar saat

Hekayə

Şakir baba rayonda yaşayır. Uzun müddət mətbuatda çalışan Şakir baba təqaüdə çıxıb. Təsərrüfatla məşğul olur. Həyətdə muxtəlif meyvə ağacları əkib, toyuq-cücə saxlayır.

Şakir baba Bakıda yaşayan nəvələrini çox istəyir. Həyətdəki ağaclardan meyvələri dərir, Bakıya nəvələri üçün aparır. Nəvələr də babalarını çox sevirlər. Beş nəvənin hamısı məktəbli olduğu üçün ancaq tətil günlərində babalarının görüşünə gedirlər.

Son vaxtlar Şakir babanın qanı yaman qaralmışdı. Saatını itirmişdi.

Böyük oğlu dedi:

-AY ata, bir saatın itirilməsinə görə niyə qanın qaraldı? Sənin üçün yaxşı bir saat alaram.

Ortancıl və kiçik oğlanları böyük qardaşlarının sözünə qüvvət verdilər:

-Ay ata, üç oğlun var. Sənin üçün bir saatda ala bilmərik?

Şakir baba bildirdi:

-Əlbətdə ala bilərsiniz amma itirdiyim saat atamdan mənə yadigar idi. Atam müharibədən qayıdanda onu almışdı. İtirdiyi qol saatı indiki saatlardan fərqli olaraq zəng çalırdı.

Böyük oğlu soruşdu:

Ata, bəlkə saatı bir yerdə qoymusan?

-Hər yeri axtarmışam tapa bilmirəm.

Tətil günləri idi. Adəti üzrə yenə də nəvələr babalarının görüşünə gəlmişdilər. Nəvələr babalarının qanı qara olmasını istəmirdilər. Axtarışa başladılar, amma saatı tapa bilmədilər. Böyük nəvə səkkiz yaşlı İbrahim babasından soruşdu:

-Baba, axırıncı dəfə nə iş görürdün?

Şakir baba fikrə getdi:

Toyuqların hinini təmizlədim, quru otları hinə səpdim.

İbrahim divar saatına baxdı. Saatın tamamına iyirmi dəqiqə qalmışdı. O, heç bir söz demədən otaqdan çıxdı. Həyətə düşüb hinin yanına gəldi. Ətrafına göz gəzdirdi. Saatı görmədi dəqiqələr keçirdi. O, zəngin səsini eşitdi. Səs hindən gəlirdi. İbrahim hindəki otları çölə çıxartmağa başladı. Əlinə ağır bir şey dəydi. Bu Şakir babanın zəngli qol saatı idi. İbrahim sevincək saatı götürüb otağa sarı qaçdı.

-Baba, sənin saatını tapdım.

-Şakir baba saatını görüb sevindi:

-Hardan tapdın balası?

-Hinin içindəki otların içində idi.

-Saatın qayışı qırılmışdı. Hinə ot qoyanda ora düşüb.

Şakir baba nəvəsini qucaqladı. Alnından öpdü.

Sağ ol balası.